**UOT 291** **Səh. (74-78)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2024.31.74**

# MƏHƏMMƏD FÜZULİ YARADICILIĞINDA İSLAM HƏMRƏYLİYİ

**Ataəmi MİRZƏYEV**
filologiya elmləri doktoru
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
ataemi@rambler.ru
ID https://orcid.org/0009 - 0005 - 0106 - 9223

## XÜLASƏ

İslam ədalət, bərabərlik, həmrəylik, humanizm, insanpərvərlik ideyalarının xalqlar arasında hökmran olmasına çalışan bəşəri bir dindir. Müsəlman Şərqinin böyük mütəfəkkirləri də öz yaradıcılıqlarında dini və milli-mənəvi dəyərləri vəhdətdə verərək islam dinin əsas prinsiplərini şərh etməyə, xalqa çatdırmağa çalışmışlar.

XVI əsr Azərbaycan ədəbiyyatının qüdrətli söz ustadı olan Məhəmməd Füzulinin yaradıcılığında islami dəyərlər, onların təbliği və xalqa çatdırılması xüsusi yer tutur. Şərq dünyasının bütün qabaqcıl ədəbi şəxsiyyətləri kimi, Füzuli də islam dinində olan müxtəlif məzhəblər arasındakı heç bir ayrılığa qoşulmamış, əksinə, onlar arasında barışıq yaratmağa çalışmışdır. O, xüsusilə, "Mətlə ül-etiqad" adlı fəlsəfi traktatında və "Hədiqət üs-süəda" əsərində özünün Allahın birliyinə inanan bir mütəfəkkir olduğunu göstərmişdir. Füzuli "Tərcümeyi-Hədisi-ərbəin" əsərində də Məhəmməd peyğəmbərin hədislərlərinə istinadən insanın mənəvi aləmindəki çatışmazlıqları islah etməyə, insanların bir-biri ilə münasibətində gözəl əxlaqa malik olmasını xalqa aşılamağa çalışmışdır. Ümumilikdə, şairin bütün yaradıcılığı boyu islami dəyərlərə xüsusi diqqət yetirilmiş, insanların bir-biri ilə münasibətində səmimiyyət, sayğı, sevgi, qarşılıqlı yardım əsas şərtlərdən biri kimi verilmişdir.

**Açar sözlər:** Məhəmməd Füzuli, islam, din, hədis, bərabərlik, həmrəylik

# ISLAM SOLIDARITY IN MUHAMMAD FUZULI'S CREATIVITY

**Ataami MIRZAYEV**
doctor of philological sciences
Institute of Literature named after Nizami Ganjavi
ataemi@rambler.ru
ID https://orcid.org/0009 - 0005 - 0106 – 9223

## ABSTRACT

It is shown in the article that Islam is a human religion which tries justice, equality, solidarity and humanism ideas reign among the nations. Great thinkers of the East had tried to explain and deliver to the people the main principles of Islam religion giving religious and national-mortal values in unity in their creativity. In the creative work of Muhammad Fuzuli, a prominent figure in 16th-century Azerbaijani literature, Islamic values, their promotion, and dissemination hold a special place. Like all leading literary figures of the Eastern world, Fuzuli did not align himself

with any particular sect of Islam but rather sought to create harmony among them. In his philosophical treatise "Matla' al-itiqad" ("The Birth of Faith") and his work "Hadikat us-Suada" ("The Garth of the Blessed"), he demonstrated his belief in the oneness of God. In his work "Tarjumeyi-Hadis-i-Arba'in" ("The translation of forty Hadith") Fuzuli also referred to the hadiths of Prophet Muhammad to address the shortcomings in the human spiritual realm and to instill good ethics in interpersonal relationships among people. Throughout his entire creative work, the poet placed special emphasis on Islamic values, highlighting sincerity, respect, love, and mutual assistance as essential factors in human interactions.

**Key words:** Muhammad Fuzuli, Islam, religion, hadith, equality, solidarity

## ИСЛАМСКАЯ СОЛИДАРНОСТЬ В ТВОРЧЕСТВЕ МУХАММЕДА ФИЗУЛИ

**Атаами Мирзоев,**
доктор филологических наук,
Институт литературы им. Низами
*ataemi@rambler.ru*
ID https://orcid.org/0009 - 0005 - 0106

### РЕЗЮМЕ

Гуманность – один из основополагающих принципов ислама. Ислам – это религия справедливости, равенства и взаимных прав. Великие мыслители мусульманского Востока пытались истолковать и донести до народа основные принципы исламской религии, соединив в своих произведениях религиозные и национально-духовные ценности.

В творчестве Мухаммеда Физули, непревзойденного в азербайджанской литературе мастера литературной поэзии, исламские ценности занимают особое место. Как и все ведущие литературные деятели восточного мира, Физули не приобщал к каким-либо разногласиям между различными сектами в исламской религии, напротив, старался создать между ними мир. Физули является мыслителем, верящим в единство Бога, особенно в философском трактате «Матла ул-итикад» («Восход веры») и в труде «Хадикат ас-суада» («Сад счастливцев»). Поэт в своей работе «Тарджума-йи Хадис-и Арбаин» («Перевод сорока хадисов») ссылаясь на хадисы Пророка Мухаммеда, старался исправить недостатки духовного мира человека и внушить народу, что люди должны иметь хорошие моральные принципы в отношениях друг с другом.

В целом, на протяжении всего творчества поэта особое внимание уделялось исламским ценностям, искренности, уважению; любовь и взаимопомощь выдвигались как одни из главных условий во взаимоотношениях между людьми.

**Ключевые слова:** Мухаммед Физули, Ислам, религия, хадис, равенство, солидарность

## GİRİŞ

İslam dünya dinlərinin sonuncusu və ən kamilidir. Böyük bəşəri və mənəvi dəyərləri özündə birləşdirən İslam dini konkret olaraq bir millətə, bir zaman kəsiyinə deyil, bütün bəşəriyyətə, cəmiyyətə və dövrlərə aiddir. İslam dininə görə bütün insanlar böyük bir ailənin bərabərhüquqlu üzvləridir. Bu din müxtəlif xalqların bir-biri ilə dinc-yanaşı yaşaması, ədalət, bərabərlik, insanpərvərlik kimi ideyaları təbliğ edir. İslam dininin əsasında humanizm

və həmrəylik dayanır. İstər Qurani-Kərimdə, istərsə də Məhəmməd peyğəmbərin hədislərində islam humanizmi və həmrəyliyi çeşidli yönləri ilə özünün hərtərəfli əksini tapmışdır. Qurani-Kərimin "Ali-İmran" surəsinin 103-cü ayəsində deyilir: "Hamılıqla Allahın ipinə (dinin, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın. Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O qəlblərinizi (islam ilə) birləşdirdi və Onun bu neməti sayəsində bir-birinizə qardaş oldunuz..." [3, s.42]. Bu ayədə Allah insanlara uzatdığı və Onun özünə doğru aparan ipindən möhkəm yapışmağı əmr edir. Bu ip – islam dini və onun kitabı olan Qurani-Kərimdir; insanlar onun ətrafında firqələrə bölünmədən birləşməli və bu yolla getməlidirlər. Göründüyü kimi, bu ayə islamın birliyə və vəhdətə nə qədər böyük önəm verdiyini bir daha təsdiqləyir. Qurani-Kərimin müxtəlif surələrində bu məzmunu ifadə edən çoxlu sayda ayələr vardır.

Şərqin böyük mütəfəkkirləri, söz ustadları öz yaradıcılıqlarında dini və milli-mənəvi dəyərləri vəhdətdə verərək islam dininin əsas prinsiplərini izah etməyə, xalqa çatdırmağa çalışmışlar. Orta əsrlər Azərbaycan ədəbiyyatının aparıcı ədəbi simalarından olan Məhəmməd Füzuli də öz yaradıcılığında islam humanizmini, islam həmrəyliyini əsas yaradıcılıq qayəsi olaraq əks etdirməyə çalışmışdır.

Məlumdur ki, hər bir dində müxtəlif məzhəblər də vardır. Bir çox hallarda bu məzhəblər arasında dinin ümumi müddəalarına uyğun gəlməyən cəhətlər özünü göstərir ki, qabaqcıl şəxsiyyətlər həmişə bu fərqləri siyasi bir alət kimi əldə rəhbər edənlərə qarşı olmuş, onlar arasında barışıq yaratmağa çalışmışlar. Bu baxımdan Füzuli islam dinində olan məzhəblər arasındakı heç bir ayrılığa qoşulmur, özünün Allahın birliyinə inanan bir mütəfəkkir olduğunu göstərir.

Füzuli "Mətlə ül-itiqad" fəlsəfi traktatının "Peyğəmbərlik və onunla əlaqədar (məsələlər) haqqında biliyə aiddir" adlı dördüncü rüknünün beşinci babında ("İmamət haqqında") islam dinində imamət problemindən, bu problemin Məhəmməd peyğəmbərin ölümündən sonra aldığı şəkil və bunun nəticələrindən təfsilatı ilə bəhs edir. Müəllif əsərdə imamın təyin edilməsi məsələsində məzhəblər arasındakı fikir müxtəlifliyini bu ardıcıllıqla verir: sünnilər, mötəzililər, mühəkkəmilər, muxtarilər, zeydilər, imamilər, ismaililər, on iki imama inananlar (isna əşərilər), batinilər, qülüvv edənlər (ifratçılar) [2, s.127-128]. Füzuli mövcud fikirləri verərkən nə bu məzhəblərdən birinə tərəfdar çıxır, nə də islam dinini bu problem əsasında sünni-şiə kimi məzhəblərə ayıran radikal ruhanilərin və cahil ifratçıların əməllərindən söhbət açır. Bu isə müəllifin islamın heç bir firqələrə, məzhəblərə bölünmədən vahid bir din olması ilə bağlı fikirlərini ifadə edir. Məlumdur ki, bütün dinlərin kökündə Allahın birliyi, vahidliyi dayanır və Allah bütün bəndələrini birliyə və vəhdətə çağırır. Bu baxımdan Füzulinin "Mətlə ül-itiqad" fəlsəfi traktatında da islami birliyə və vəhdətə çağırış vardır. Bütün bu məsələlər isə Füzulinin Kərbəla hadisəsinə müraciət etməsinin həm də fəlsəfi bünövrəyə söykəndiyini təsdiqləyir.

Füzulinin İmam Hüseynin şəhadətinə həsr olunmuş "Hədiqət üs-süəda" əsəri də onun "Mətləül-itiqad" traktatındakı fəlsəfi görüşlərinin müəyyən anlamda məntiqi davamı kimi başa düşünülə bilər.O, "Hədiqət üssüəda" əsərində sünni-şiə məzhəbləri arasında ədavət deyil, barışıq yaratmağa çalışmışdır. Müəllif məqsədinə uyğun olaraq Kərbəla faciəsini, İmam Hüseyn müsibətini Adəmdən Məhəmməd peyğəmbərə qədər olan peyğəmbərlərin başına gələn olayların təsviri fonunda vermişdir. Allah-Təala öz sevimli bəndələrinin – peyğəmbərlərinin iman və etiqadını sınağa çəkdiyi kimi Kərbəla vaqiəsi də İmam Hüseyn üçün əqidə və məslək uğrunda bir sınaq meydanı idi. İmam Hüseyn hərəkatı əslində bir mərdlik, cəngavərlik, rəşadət, əzm və mübarizə məktəbidir. Bu isə bütün din və məzhəblər üçün bir barışıq, həmrəylik örnəyi hesab edilməlidir.Füzulinin "Hədiqət üs-süəda" əsəri bir neçə qatdan ibarətdir və bu qatlar dünyagörüşü, səviyyə və mövqe baxımından müxtəlif yönlərdə açılmaqla bərabər, müxtəlif dini və dini-fəlsəfi cərəyanlar üçün də önəmli və maraqlı olmuşdur. Əsərin yalnız hər il məhərrəm ayında təziyə məclislərində imam Hüseynin qətlə yetirilərək şəhid

olmasına göz yaşları axıtmaq üçün yazılması onun ilk baxışda gözə dəyən üst qatıdır. Əslində, isə Füzulinin məqsədi "Hədiqət üssüəda"nı yazarkən haqqında danışılan əhvalatın təsviri fonunda daha böyük, daha ali idi. Müəllif bu ümummüsəlman faciəsinin tarixi köklərini, mahiyyətini xalqa çatdırmaqla islamın barışıq və sülh dini olmasını nəzərə çatdırmaq istəyirdi. Füzulinin sənətkarlığı ondadır ki, burada intiqama, ədavətə çağırış yoxdur, əsər oxucularında məzhəb ayrılığından irəli gələn ehtirasları alovlandırmır, əksinə, onun üzərinə su çiləyərək insanları düşünməyə məcbur edirdi. Əsərin məhz bu məziyyətini nəzərə alınaraq onu məqtəl janrının tarixində "katarsis mərhələsi" adlandıranlar da vardır. Çünki, bu əsər öz oxucularını və dinləyicilərini "intiqama deyil, katarsisə – təmizlənib durulmaya və düzgün nəticə çıxarıb belə çaxnaşmalara bir daha yol verməməyə səsləyirdi" [1, s.10].

Füzulinin humanizm, islam həmrəyliyi, dini bərabərliklə bağlı fikirləri fars-tacik şairi Əbdürrəhman Camidən (1414-1492) tərcümə etdiyi "Tərcümeyi-Hədisi-ərbəin" əsərində də qabarıq şəkildə nəzərə çarpır. Məlumdur ki, Məhəmməd peyğəmbərə məxsus olan hədislər ümumbəşəri dəyərlərə malik söz inciləridir. İnsanın mənəvi aləmindəki çatışmazlıqları islah etmək, onu saflaşdırmaq, hər cür rəzil və çirkin xüsusiyyətlərdən xilas edib gözəl əxlaqa – fəzilətlərə qovuşdurmaq Peyğəmbər hədislərinin əsas ideyasını təşkil edir.

İslam əslində əxlaq, fəzilət və hikmət haqqında dindir. İslamda insanların mənəvi qiyməti onların sahib olduqları əxlaqa görədir. Bir hədisdə deyilir: "Sizin imanca ən gözəliniz əxlaqca ən gözəl olanınızdır".

Məlum olduğu kimi, islam əxlaqı hər bir müsəlmanın qarşısında müəyyən vəzifələr qoymuşdur. Ümumiyyətlə, insanlara aid bütün vəzifələri burada tapmaq mümkündür; bunlar ya Allahın mərhəmət və rəhmətini qazanmaq üçün, ya insanların özünə və ailəsinə, ya da cəmiyyətə görə müəyyənləşirdi.

Qurani-Kərimdə bütün möminlərin bir-biri ilə qardaş olduğu bildirilmişdir. "Əl-Hucurat" surəsinin 10-cu ayəsində göstərilir: "Həqiqətən, möminlər [dində] qardaşdırlar. Buna görə də [aralarında bir mübahisə düşsə] iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, [əvvəlki günahlarınız bağışlanıb] rəhm olunasınız!" [3, s.395]. Əlbəttə, burada "mömin" deyilərkən təkcə müsəlmanlar deyil, bütün insanlar nəzərdə tutulmuşdur.

Məhəmməd peyğəmbərin hədislərindən birində deyilir: hər bir mömінin boynunda öz mömin qardaşının otuz haqqı vardır. Eləcə də başqa bir hədisdə buyurulur: "Sizlərdən biriniz özünə rəva gördüyünü [din] qardaşına rəva görmürsə, mömin deyil". Füzuli Caminin bu hədisin şərhinə həsr etdiyi qitəsinin əsas məzmununu saxlamaqla onu belə tərcümə-şərh etmişdir:

*Mömin olmaz kişi həqiqət ilə*
*Dutmayınca təriqi-tərki-həva.*
*Hər nə öz nəfsinə rəva görsə,*
*Yarü qardaşə görməyincə rəva.* [4, s.47]

İslam dini insanların bir-biri ilə gözəl münasibətdə olmasına xüsusi əhəmiyyət verir. İnsanların bu münasibətində səmimiyyət, sadəlik, nəzakət, sayğı, sevgi, qarşılıqlı yardım əsas şərtlərdəndir. Məhəmməd peyğəmbərin hədislərində insanların bir-biri ilə gözəl münasibətdə olmasının rəngа-rəng yönləri ifadəsini tapmışdır.

"Əsl müsəlman odur ki, müsəlmanlara onun dilindən və əlindən xətər toxunmasın". Bu hədisdə iki məqam nəzərə çarpdırılır: 1) Əsl müsəlman dili ilə heç bir kimsəni incitməməli, insanlarla xoş danışmalı, dilini saxlamaqla öz salamatlığını qoruduğunu unutmamalıdır; 2) Əsl müsəlmanın əlindən də heç kəs ziyan görməməli, o, başqalarına zərər yox, xeyir verməlidir. Bu hədisin Füzuli qələmində tərcümə-şərhi belədir:

*Müslim oldur ki, əhli-aləm ilə*
*Sidq ola qövli, xeyir ola əməli.*
*Zərərin görməyə müsəlmanlar,*
*Ola pakizə həm dili, həm əli.* [4, s.49]

Füzulinin əsərində bu hədislə yaxından səsləşən başqa bir hədis də vardır: "İnsanların ən xeyirlisi insanlara ən faydalı olanıdır". Bu hədis insanların bir-birinə yaxşılıqlar arzulaması və onların xeyrinə olacaq işlərə əməl etməsini əsas məqsəd kimi göstərən is-

lamın bəşəriyyətin xoşbəxtliyini, cəmiyyətin əmin-amanlıq içində dinc yanaşı yaşamasını, güclünün gücsüzə, varlının yoxsula əl uzatmasını, kömək göstərməsini təlqin edən sonuncu və ən mükəmməl din olmasını çox gözəl ifadə edir. Füzuli:

*Cəhdin olduqca xəlqə nəf' yetür.*
*Xəlqi et iltifatuna məmnun.*
*Əhsəni-xəlqi-aləm oldur kim,*
*Xülqdən xəlqə ola nəf'i füzun.* [4, s.73]

İslam dinində qonşuluğun böyük önəmi vardır. Hədislərin birində buyurulur: “Ev satın almazdan öncə qonşu, yola çıxmazdan öncə isə yoldaş axtarın”. İslam dininə görə, qonşunun müsəlman, yaxud qeyri-müsəlman olmasının heç bir fərqi yoxdur; hamı qonşuluq haqqına sahibdir. Məhəmməd peyğəmbərin hədislərinin birində deyilir: “Üç cür qonşuluq haqqı vardır. Bunlardan birinin bir, digərinin iki, üçüncü qonşunun isə üç haqqı vardır. 1.Üç haqqı olan qonşu, müsəlman və qohum olan qonşudur. Bu üç haqq: qonşuluq, din qardaşlığı və qohumluq haqqıdır. 2. İki haqqı olan qonşu, müsəlman olan qonşudur. Bu iki haqq isə din qardaşlığı və qonşuluq haqqıdır. 3. Qeyri-müsəlman qonşunun bir haqqı vardır ki, o da qonşuluq haqqıdır”.

Qonşuya hörmət və onunla xoş rəftar etmək, ehtiyacı olanda köməklik göstərmək, xeyir və şər işlərində yaxından iştirak etmək, ona əziyyət verə biləcək şeylərdən uzaq olmaq hər bir müsəlman üçün vacibdir. Füzulinin istifadə etdiyi hədislərdən birində deyilir: “Mömin qonşusu tox olmadan yaşaya bilməz” [“Qonşusu ac ola-ola özü tox yaşayan kimsə mömin deyil”]. Şair bu hədisi belə tərcümə-şərh edir:

*Mömin oldur ki, mümkün olduqca*
*Qonşusun ğeyrə etməyə möhtac.*
*Ol degil kim, hüzur ilə gecələr*
*Özü tox yata, qonşusu yata ac.* [4, s.86]

Göründüyü kimi, Füzuli “Tərcümeyi-Hədisi-ərbəin” əsərində Məhəmməd peyğəmbərin hədislərinə əsasən insanların bir-biri ilə vacib sayılan qarşılıqlı münasibətlərini çeşidli yönləri ilə verərək islam dininin bir sıra əsas prinsiplərini nəzərə çatdırmağa nail olmuşdur.

## NƏTİCƏ

Məhəmməd Füzulinin yaradıcılığı ilə tanışlıq bir daha göstərir ki, islam insana böyük əhəmiyyət verən, insanı islaha, gözəl davranışa, bir-biri ilə xoş münasibətə yönəldən bir dindir. İslam dininin əsas prinsipləri qarşıdurmalara və ədavətə deyil, ədalətə, bərabərliyə, həmrəyliyə, humanizmə, insanpərvərliyə söykənir. Bütün bunlar isə islamın bütün dinlərin fövqündə dayanan din olduğunu bir daha təsdiqləyir. İslam dininin bərabərlik, humanizm, insanpərvərlik kimi ideyalarını əldə rəhbər tutan Füzuli öz yaradıcılığında onları xalqa aşılamağa çalışmışdır.

## ƏDƏBİYYAT:

1. Babaşahoğlu Ə. Məqtəl janrında katarsis mərhələsi (M.Füzulinin “Hədiqətüs-süəda” əsərinə fəlsəfi nəzər) // “Çıraq” jurnalı, 1999, № 3, s. 6-13
2. Füzuli. Əsərləri. 6 cilddə, V cild (Tərtib edəni: H.Araslı). Bakı, Şərq–Qərb, 2005
3. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi (Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev). Bakı, Qismət, 2006
4. Mirzəyev A. Cami, Nəvai və Füzuli yaradıcılığında 40 hədis. Bakı, Ozan, 1997

**Rəyçi:** **f.ü.f.d., Elnur Mustafayev**

**Göndərilib: 14.09.2024** **Qəbul edilib: 19.09.2024**